# Azərbaycan Yazıçılar Birliyinində anım günü





Sentyabrın 27-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan Klubunda 27 sentyabr - Anım günü ilə bağlı "Qarabağ Azərbaycandır" adlı ədəbi-bədii tədbir keçirildi. Tədbirdə ilkin olaraq, Azərbaycan Respublikasının Himni səsləndirildi, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirin aparıcısı Azərbaycan Yazıçılar Birliyinin katibi yazıçı-dramaturq Elçin Hüseynbəyli yığcam olaraq I Qarabağ, 44 günlük Vətən müharibəsindən, torpaqlarımızı 30 illik işğaldqan və bu günlərdə keçirilən antiterror əməliyyatını uğurla sona çatdıran ordumuzun şücaətindən bəhs etdi, Çıxışında AYB-nin 20 Yanvar faciəsindən, ta bu günə qədər Qarabağ məsələsi ilə bağlı gördüyü işlərdən, dərc olunan kitablardan, keçirirən tədbirlərdən danışdı. Bildirildi ki, qələbəmizdə Azərbaycan yazıçılarının və onları tədris edən müəllimlərin böyük rolu olub. Bundan sonra ədalətli işimizin təntənəsi və tərənnümünə də öz töhfəsini verməkdə davam edəcəyik.

E.Hüseynbəyli çıxışında ədəbiyyatımızın qələbəmiz haqda guya heç yazmadıqları fikirlərinə də münasibət bildirdi: "Görünür, bunlar kimlərinsə, sifarişini yerinə yetirirlər". Sonra da AYB-nin və yazarlarımızın qələbəmizlə bağlı dərc etdirdikləri kitablar və almanaxlardan bəhs edərək, sözü Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara verdi.

Anar müəllim münaqişənin ilk günündən söz açdı. 1990-cı ilin məşum 20 Yanvar hadisələrindən başlayaraq, indiyə kimi Azərbaycan yazıçılarının fədakarlığından söz açdı, yazıçılarımızın daima dövlətin yanında olub, onların haqq səsinin nəinki Azərbaycanda, eləcə də xaricdə səslənilməsi üçün əllərindən gələni etdiklərini dedi. Erməni ictimai xadimlərinin Qarabağla bağlı cəfəng və sərsəm bəyanatlarını yada saldı: "O ağır, çətin zamanlarda ermənilərin Qarabağla bağlı bəyanatlarına ilk cavab verən, haqq səsimizi dünyaya yayan, əlbəttə ki, Azərbaycan Yazıçılar Birliyi oldu. İlk gündən bu vaxta qədər həm Yazıçılar Birliyinin özü, həm də birliyin ayrı-ayrı üzvlərinin Qarabağla bağlı fəaliyyətləri göz önündədir".

Anar müəllim Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun inanılmaz qəhrəmanlıq göstərdiyini və 30 illik işğala son qoyulduğunu qeyd etdi: "Şəhidlərimizin ruhu qarşısında baş əyirəm, Allah qazilərimizə şəfa versin", - dedi.

Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev I Qarabağ müharibəsi zamanı AYB rəhbərliyinin dəfələrlə ön cəbhədə olmasını yada saldı. Milli qəhrəman Allahverdi Bağırovla və digər hərbiçilərlə görüşlərdən, yazıçılarımızın bir an belə olsun, döyüşçülərimizdən uzaq olmamasından bəhs etdi: "Biz yazıçılar onlara daima mənəvi dəstəyimizi nümayiş etdirirdik".

Xalq yazıçısı övladları şəhid olan yazıçılarımızı da ehtiramla yad etdi: "Bizim 11 yazıçımızın övladı müharibədə şəhid olub. Onların arasında Xalq şairi Xəlil Rzanın, Xalq yazıçısı Sabir Əhmədlinin də övladları var. Allah bütün şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun".

Azərbaycan Yazıçılar Birliyinin Beynəlxalq əlaqələr üzrə katibi Səlim Babullaoğlu çıxışına: "Allah əziz şəhidlərimizə rəhmət eləsin. Allah ordumuzu qorusun! Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevə eşq olsun!" - deyərək, başladı.

O, çıxışına davam edərək: "Mən ötən il başladığımız və sentyabrın 27-dən noyabrın 9-a qədər gerçəkləşdirdiyimiz "Şuşaya salam" layihəsini xatırlatmaq istərdim", - dedi və əlavə etdi: "Ötən il biz Azərbaycan Yazıçılar Birliyi olaraq bir təşəbbüs etdik, Mədəniyyət Nazirliyi və "Space" telekanalı ilə birlikdə ədəbiyyat və televiziya tarixinin, bəlkə də, dünyada ən uzun poeziya layihəsini həyata keçirdik. Azərbaycan da daxil olmaqla, 30 ölkədən 44 nüfuzlu şair Şuşa haqqında danışdılar, gözəl Şuşaya ithafən şeirlər oxudular, hətta bəziləri Şuşa ilə bağlı şeirlər də yazdılar ki, həmin şeirləri səsləndirdilər. Həmin videoqiraətlər 44 gün ərzində "Space" telekanalının efirində verildi. O qiraətlər eyni zamanda "Ədəbiyyat qəzeti"nin saytına yerləşdirildi". AYB katibi Suşanı salamlayanlar sırasında Turkiyə, Pakistan, Birləşmiş Krallıq, Danimarka, İtaliya,Rumıniya, ABŞ, Macarıstan, Ukrayna, Moldova, Belarus, Rusiya, Yaponiya, Vyetnam, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Estoniya, Serbiya, Monteneqro, Bosniya-Herseqovina, Gürcüstan, Başqırdıstan (Rusiya),Tatarıstan, (Rusiya), Oman, Misir, İraq, İran kimi ölkələrin şairlərinin olduğunu bildirdi.

O, belaruslu şair Mariya Kobetsin dilimizə çevirdiyi şeiri və xalqımıza ünvanladığı fikri səsləndirdi: "Əziz Azərbaycan vətəndaşları, Azərbaycan tarixinin və mədəniyyətinin həqiqi simvolu olan gözəl Şuşanın sakinləri, sizi səmimiyyətlə salamlayıram.

Təəssüf ki, hələ də sizin o tarixi şəhərdə olmamışam, amma dəqiq bilirəm ki, Qarabağda, dağların başında ucalan əsrarəngiz Şuşa Azərbaycanın ən gözəl guşəsidir, milli musiqi və ədəbiyyatınızın beşiyidir. Üstəgəl, füsunkar təbiəti öz gözəlliyinə və rəngarəngliyinə görə şəhərin mədəni irsindən, zənginliyindən geri qalmır. Bilirəm ki, Azərbaycanda bu il "Şuşa ili" elan edilib, çoxlu əlamətdar tədbirlər keçirilir. İcazə verin, sizi bu gözəl il və hadisələr münasibəti ilə təbrik edim. İnanıram ki, bu hadisələr şəhəri, sözün bütün mənalarında, zənginləşdirəcək, gözəlləşdirəcək.

Ona görə də səni bir daha salamlayıram, Şuşa!"

İndi isə sənə ithaf etdiyim şeirimi oxuyacağam, Şuşa! - deyərək, "Nə yaxşı ki, daşlar ölmür" şeirini səsləndirdi.

Xalq yazıçısı Elmira Axundova Ukraynada səfir işləyən zaman Qarabağla bağlı həqiqətləri Ukrayna ictimaiyyətinə və orada fəaliyyət göstərən diplomatik missiyaların rəhbərliyinə çatdırdığını dedi. Azərbaycan Yazıçılarının əsərlərindən ibarət əsərlərin toplusu olan "Bayraqdar" kitabını Səlim Babullaoğlu ilə birlikdə dərc etdirdiklərini və möhtəşəm təqdimatını keçirdiklərini dedi.

Xalq şairi Vahid Əziz münaqişənin tarixindən və həmin münaqişənin bu günə qədər içində olduğunu dedi; yazıçılarımızın müharibə haqda əsər yazmadığı iddialarının absurd və mənasız olmasından bəhs etdi.

AYB-nin katibi İlqar Fəhmi çıxışı zamanı yazıçı və şairlərimizin müharibə, qəhrəmanlarımız, qələbəmiz haqda heç bir əsər yazmadıqları fikrini səsləndirənlərə "Bu fikri səsləndirmək nadanlıqdır", - dedi.

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, yazıçı-dramaturq Firuz Mustafa və digər çıxışçılar da 30 illik torpaq həsrətindən, el-obasından didərgin düşmüş vətəndaşlarımızdan, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qəhrəmanlığından, şanlı zəfərimizdən söz açaraq, bizə bu xoşbəxt günləri yaşadan şəhidlərimizin ruhuna ehtiramlarını bildirdilər.

Qarabağa, Azərbaycan Ordusuna, Şəhidlərimizə həsr edilmiş kitabların sərgisi də təşkil olunmuş tədbirin ikinci hissəsində şairlər Qarabağla bağlı şeirlərini də səsləndirdilər. Sonra AYB üzvləri Qənimətlər parkını ziyarət etdilər, qələbəmizin şəninə ucaldılacaq abidənin qarşısına çiçək dəstələri qoydular.




*Faiq BALABƏYLİ*